Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Bütün nəsillərin müasiri Qara Qarayev

**Qara Qarayevin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Bütün nəsillərin müasiri Qara Qarayev:** Qara Qarayevin 100 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. R. Məmmədli ; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı : F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 41 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

**Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2018-ci ilin fevral ayında Azərbaycan mədəniyyətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, tanınmış alim-pedaqoq və ictimai xadim, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı, akademik Qara Əbülfəz oğlu Qarayevin anadan olmasının 100 illiyi tamam olur.

Qara Qarayev Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi özünəməxsus nadir fitri istedada malik şəxsiyyətlərdəndir. Novator sənətkar kimi o, uzun əsrlik qədim milli musiqi irsinin ənənəvi klassik və ən müasir musiqi formalarıyla son dərəcə ahəngdar vəhdətində çox sayda monumental əsərlər meydana gətirmişdir. Həyat, insan və zaman haqqında dərin fəlsəfi düşüncələri bütün vüsəti ilə yüksək professional səviyyədə əks etdirən həmin ecazkar sənət nümunələri daim əxlaqi-mənəvi kamilliyə çağırır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin tarixi nailiyyətlərlə zənginləşdirilməsi və dünya miqyasında tanıdılmasında müstəsna xidmətlər göstərmiş görkəmli sənətkar Qara Qarayevin 100 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının təklifləri nəzərə alınmaqla, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 oktyabr 2017-ci il.

## Tərtibçidən

XX əsr musiqi mədəniyyətimizin ən görkəmli nümayəndəsi Qara Qarayev zəngin yaradıcılığı və möhtəşəm sənət dünyası ilə bəşəriyyətin diqqət mərkəzində dayanmış şəxsiyyətlərdən biri olub. Böyük Üzeyir Hacıbəylidən dərs almış dünya şöhrətli bəstəkarın bütün əsərləri bəşəri xarakter daşıdığından onun ədəbi irsi yalnız bir xalqın deyil, dünya mədəniyyətinin incilərindən sayılır. Qara Qarayev böyük bəstəkar olmaqla bərabər, həm də zəngin dünya görüşünə, ensiklopedik biliyə, fəlsəfi ümumiləşdirmələrə, geniş erudisiyaya, iti zəkaya malik alim, mütəfəkkir idi. O, dünya musiqi elminin son nailiyyətlərini böyük dəqiqliklə öyrənmiş, mənimsəmiş, dünya musiqisinin, eləcə də ədəbiyyatının, rəssamlığının, teatrının gözəl bilicisi olmuşdur. Qara Qarayevin onun elmi-publisistik irsi, qırx il ərzində yazdığı çoxlu məqalələri, resenziyaları, məruzə və çıxışları, müsahibələri, incəsənətin bir sıra vacib problemləri – xəlqilik, millilik, beynəlmiləlçilik, ənənə, novatorluq, musiqidə faciə və s. haqqında fikirləri, düşüncələri, görüşləri, elmi müddəaları, ona böyük mütəfəkkir alim kimi Azərbaycan musiqisi elmində möhkəm və şərəfli yer tutmasına haqq qazandırır. Təsadüfi deyil ki, müəllimi Üzeyir Hacıbəyovdan sonra Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü məhz Qara Qarayev seçilmişdir. Qara Qarayev cəmi 64 il yaşamışdır (1918-1982), lakin çox işlər görmüşdür. Qara Qarayevin fikrincə, "Əgər insanların həyatı onların gördüyü işlərə uyğun uzansaydı:- insanların xoşbəxtliyi naminə, həyatın yaxşılaşması naminə, tərəqqinin xeyrinə, yaxşılığın xeyrinə, - bu ədalətli iş olardı". Bu gün hər birimiz fəxarət hissi keçiririk ki, Qara Qarayev Azərbaycan mədəniyyətinə dünya şöhrəti gətirən musiqi xadimlərimizdəndir. Qara Qarayev haqqında dünyanın tanınmış musiqiçilərinin, sənətçi və bəstəkarlarının söylədikləri dəyərli fikirləri bir yerə toplasaq, böyük bir dastan bağlanar. Ənənəyə sadiqlik və müasirlik Qarayev yaradıcılığında ülvi

vəhdət təşkil edir. Qara Qarayev Azərbaycanın qədim musiqisi ilə Qərbi Avropa və rus klassik musiqisinin ən yaxşı nümunələrini birləşdirərək yaradıcılıq üfüqünü çox cəsarətlə genişləndirdi. Onun novatorluğunu bütün dünya qəbul edirdi. Q. Qarayevin musiqisi onun həyatının – sənətkar həyatının, parlaq, dolğun və istedadlı insan həyatının dəqiq inikası idi. Müasir bəstəkarlıq məktəbinin layiqli başçısı olan Q.Qarayev öz ideyalarını, fikirlərini, elmə, incəsənətə baxışlarını səxavətlə başqaları ilə hər zaman bölüşmüşdür. Dövrdən, zamandan, quruluşdan asılı olmayaraq bəstəkarın dərin məna çalarları ilə zəngin əsərləri hər zaman bəşərə, estetik və mənəvi tərbiyəyə, əxlaqa, inama, etibara, ülvi hiss və sevgiyə, nəzakətə, mehribanlığa, vətənə, doğma torpağına, təbiətə və cəmiyyətə dəyərli ismarıc bir vasitə olmuşdur desəm, yəqin ki, yanılmaram. Qara Qarayevin musiqisi bəşəri ideyalarla elə zəngindir ki, tükənmək bilməyən bədii fantaziyası ecazkar bir aləm yaradıb. Q.Qarayevin bədii təfəkküründən süzülən hər bir musiqi əsəri təsirli, düşündürücü fikir və ideyalarla zəngindir. Bu il görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 yaşı tamam olur. Bu münasibətlə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi Metodika şöbəsi olaraq bu vəsaiti yazmağı özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissədə Q.Qarayevin həyat və yaradıcılığından söhbət açılır. II hissədə isə kitabxanaçılara metodik köməklik məqsədilə Q.Qarayevin yubileyi ilə bağlı keçiriləcək tədbirlərin planı verilmişdir.

## Qara Qarayevin ölməz irsi

Azərbaycan xalqının mədəniyyət salnaməsini yaradan böyük şəxsiyyətlər arasında musiqiçilər həmişə şərəfli yer tutmuşlar. XX əsr bu baxımdan Azərbaycan incəsənəti üçün sözün əsl mənasında qızıl əsrdir. Dahi Ü. Hacıbəyov ilə yanaşı, bu əsrin tarixi səhifələri böyük bəstəkar, pedaqoq, musiqi-ictimai xadimi Q. Qarayevin adı ilə bağlıdır. Q. Qarayev musiqisi əsrin yaddaşına təkcə Azərbaycan hüdudlarında deyil, ümumbəşəri əhəmiyyətə malik xəzinə kimi daxil olmuşdur. Bəli, Q. Qarayev dünya musiqi mədəniyyətinin nadir simalarındandır. Onun dərin məzmunlu, zəngin, milli gerçəklik hüdüdlarından kənara çıxan, böyük ümumiləşdirmə qüvvəsinə malik musiqisi XX əsr ümumbəşər mədəniyyətinin ən nadir səhifələrindən biri kimi əhəmiyyətlidir. Bəstəkar özündən əvvəl gələn sənətkarların yaradıcılıq irsinə yeni baxışla yanaşmış, incəsənətdə öz yolunu tapmağa nail olmuşdur. Bəstəkarın "Leyli və Məcnun" simfonik poeması, "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri, "Don Kixot" simfonik qravürləri, III simfoniyası, skripka və orkestr üçün əsərləri musiqi salnaməsinin ən qiymətli səhifələridir. Q.Qarayevin həyata müasir baxışı, həyat həqiqətlərini əsl vətəndaş mövqeyindən tərənnüm etmək, ona müdaxilə etmək bacarığı, milli motivlərə müasir münasibət, onun sənət qayəsinə xas olan əsas cəhətlərdir. Elə buna görə də maestro Niyazi Qara Qarayev musiqisini "ürəkdən od qoparan sirli bir dünya" adlandırmışdır. Q. Qarayev milli musiqimizə yeni məzmunla yanaşı müasir ifadə vasitələri, yeni janrlar gətirmişdir. Bəstəkar həm klassikaya arxalanır, həm də klassik ənənələri daxilən dinamik şəkildə dəyişdirir, müasir məzmuna tabe edir. Məsələn, E. Rostanın "Sirano de Berjerak" komediyasının motivləri əsasında "Çılğın qaskoniyalı" müziklində müasir estrada musiqisinin səciyyəvi xüsusiyyətləri intibah dövrünün üslubu ilə uzlaşdırılır, II simfoniyada İ. S. Bax yaradıcılığının dəsti-xətti, simli kvartetdə V. A. Motsartın, baletlərin dramaturji

kompozisiyasında P.İ.Çaykovsiki və S.Prokofyevin, orkestr çalarlarında isə impressionizmin təsiri duyulur. Bəstəkarın yaradıcılığında diqqəti cəlb edən daha bir cəhət onun başqa xalqların musiqi və mədəniyyətinə böyük marağıdır. Bu maraq onun vətəndaşlıq pozisiyası, onun bir sənətkar kimi dünyada baş verən hər bir hadisəyə öz münasibətini bildirmək məsuliyyəti ilə bağlı meydana gələn bir maraq idi. Bu cəhətdən onun "Vyetnam suitası", "Alban rapsodiyası", "İldırımlı yollarla" baleti, "Don Kixot" qravürləri diqqəti cəlb edir.

Qara Əbülfəz oğlu Qarayev 1918-ci ildə Bakıda həkim ailəsində anadan olmuşdur. O, ilk musiqi təhsilini musiqi məktəbində Kozlovun başçılığı altında alır, 30-cu ildə isə Bakı musiqi texnikumunda yüksək professional keyfiyyətlərə malik müəllim Şaroyevin sinfində təhsilini davam etdirir. Bəstəkarlığa olan meyil onu Konservatoriyaya gətirib çıxarır. Hələ tələbə ikən o, öz qələmini simfonik və kamera əsərlərində sınayır. 1937-ci ildə onun "Tsarskoye selo heykəli" fortepiano əsəri, orkestr üçün yazılmış "Nəğmələr" əsəri meydana gəlir. Bəstəkar 1939-cu ildə Moskva Dövlət Konservatoriyasına daxil olur. Burada təhsil illərində Cövdət Hacıyevlə birgə "Vətən" operası üzərində işləyir. Bu dövrdə yazdığı əsərlər artıq onun fitri istedada malik olduğunu nümayiş etdirir. Bu, “Fortepiano üçün üçsəsli fuqa” " (1939), simfonik orkestr üçün "Passakaliya və üçmövzulu fuqa" (1941), nəfəsli alətlər üçün "İdman" süitası (1938), "Ömər Xəyyamın sözlərinə 6 rübai" (1946) romanslar məcmuəsi idi. 1943-cü ildə bəstəkar 2 hissədən ibarət olan si-minor simfoniyasını başa çatdırır. Bu əsər S. Hacıbəyov və C. Hacıyevin simfoniyaları ilə yanaşı milli simfonizmin yaranmasına zəmin yaradır. 1946-cı ildə bəstkar Do-major tonallıqlı II simfoniyasını başa çatdırır. 5 hissədən ibarət olan bu əsərdə Böyük vətən müharibəsinin qurtarması ilə əlaqədar olaraq, insanların keçirdiyi həyacan hissi təsvir olunmuşdur. 1947-ci ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar Q.Qarayev "Leyli və Məcnun" simfonik poemasını

yazır. Bu əsər bir hissəli simfonik poema üçün ənənəvi olan sonata formasında, lakin yeni traktovkada yazılmışdır. Nizami obrazlarından ruhlanan bəstəkar 1949-cu ildə "Yeddi gözəl" simfonik süitasını yazır. Musiqimizin ən məşhur əsərlərindən olan bu süita dünyanın bir çox guşələrində dinləyicilərin rəğbətini qazanmışdır. Onlardan "Yeddi gözəl" baletinə daxil olan məşhur "Vals", "Brilyant" xalq rəqsi əsasında yazılmış "Təlxəklərin rəqsi", "Yeddi gözəl"in ayrı-ayrılıqda portreti məhz ilk dəfə süitada səslənmişdir. Görkəmli rejissor G.Hidayətzadənin təklifi ilə bəstəkar Nizami Gəncəvinin "Xəmsə"sinin motivləri əsasında "Yeddi gözəl" baletini yazır (baletmeyster P. Qusev). Balet 1952-ci ildə Azərbaycan opera teatrının səhnəsində tamaşaya qoyulur və o gündən ayaq açıb bütün dünyanı gəzir. Əgər "Leyli və Məcnun" simfonik poemasında bəstəkar etiraz səsini ucaldıb, xeyirlə şərin toqquşmasını verirsə, "Yeddi gözəl" baletində xalqın taleyi ilə ayrılmaz tellərlə bağlı olan insanın orta əsrlərin zülm və əsarətinə qarşı mübarizəsini açıqlayır. 1958-ci ildə bəstəkarın 2-ci baleti səhnəyə qoyulur. Bu, Leninqrad (indiki Sankt- Peterburq) opera və balet teatrının sifarişi ilə yazılmış "İldırımlı yollarla" baleti idi. (Quruluşçu rejissor G.Sergeyevdir, librettosu Slonimskinindir). Burada bəstəkar XX əsrin irqi ayrı-seçkilik, müstəmləkəçiliyə qarşı mübarizə kimi mühüm problemlərini təcəssüm etdirmişdir. Onun simfonik əsərləri arasında "Alban rapsodiyası", "Vyetnam süitası", "İldırımlı yollarla" baletindən 2 süita, "Klassik süita", "Don Kixot" qravürlərinin adını çəkə bilərik. Q.Qarayevin kamera orkestri üçün yazılmış III simfoniyası müasir dövrün emosional və fəlsəfi fikrini ifadə edir. Əsərin II hissəsində aşıq ritmləri eşidilir. Simfoniya "Segah" muğamının başlıca intonasiyası ilə bitir. Simfoniyanın mərkəzində intellektual cəhətdən zəngin, mürəkkəb dünyagörüşlü insan durur. Bəstəkar konsert janrı sahəsinə də müəyyən yeniliklər gətirmişdir. Onun görkəmli sovet skripkaçısı L.Koqana həsr etdiyi skripka və

simfonik orkestr üçün konsertində (1968, ilk dəfə Koqan ifa edib) və fortepiano ilə orkestr üçün konsertində (1978) novatorluq axtarışları öz əksini tapmışdır. Q.Qarayev F.Şopen, D.Şostakoviç, K.Debüssi ənənələrini də milli zəmində təkrar etmişdir. Bu mənada onun 4 dəftərdən ibarət 24 prelüdünü göstərmək olar. Hər dəftər öz məzmunu, ideyası ilə bəstəkarın müxtəlif dövrlərdə yazdığı əsərlərlə səsləşir. Q.Qarayevin vokal əsərlərini bir neçə qrupa bölmək olar:

– Lirik romanslar;
– Xor üçün yazılmış əsərlər;
– Kütləvi və estrda janrlarında olan əsərlər.

Bu mənada onun xor və simfonik orkestr üçün yazılmış "Fokstrot", "Sülh haqqında mahnı", A.S.Puşkinin 150 illiyinə həsr edilmiş "Gürcüstan təpələrində", "Mən sizi sevirdim" romansları, Lenqston Hyuzun şeirlərinə səs və caz orkestri üçün 3 noktürn əsərlərini qeyd etmək lazımdır. Q. Qarayev yaradıcılığının ən mühüm və parlaq səhifələrindən birini də onun kino və dram tamaşalarına yazdığı musiqi təşkil edir. Bu mənada onun "Uzaq sahillərdə" (rej. T.Tağızadə), "Don Kixot" ( rej. Kozintsev), "Qoyya" (rej. Volf), "Bir məhəlləli iki oğlan" (rej. Qurun və Ə.İbrahimov) bədii filmlərinə, "Xəzər neftçiləri haqqında dastan", "Vyetnam", "Dənizi fəth edənlər" sənədli filmlərinə, "Nikbin faciə", "İnsan məskən salır", "Kral IV Henrix", "Otello", "Qış nağılı", "Ölülər", "Antoni və Kleopatra" tamaşalarına yazdığı musiqi qeyd olunmalıdır. Ölməz sənətkar ictimai işlərdə də fəal çalışmışdır. Uzun illər SSRİ Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Respublikası EA-nın həqiqi üzvü, Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışmışdır. Bəstəkar iki dəfə Dövlət mükafatına layiq görülmüşdür. Q. Qarayev 1982-ci ildə Moskvada vəfat edib. Onun yaradıcılığı sənətə, həyata münasibəti gələcək nəsillərə örnək olmuş və olacaqdır.

## Keçiriləcək tədbirlər

Qara Qarayevin 100 illik yubileyi münasibətilə respublikamızın müxtəlif təhsil ocaqlarında, liseylərdə, kitabxanalarda, gimnaziyalarda bir sıra tədbirlər; kitab müzakirəsi, oxucularla söhbət, konfrans, icmal, dəyirmi masa, bu mövzu ilə bağlı rəsm müsabiqəsi, ədəbi-bədii gecə, sual-cavab gecəsi və s. təşkil edilə bilər. Bu tədbirlər arasında sərgilər mühüm yer tutur. Sərgidə bəstəkarın kitabları, müxtəlif mətbuat səhifələrində onun haqqında nəşr olunmuş məqalələr, onun fotoları nümayiş olunur. Sərgidə həmçinin görkəmli şəxsiyyətlərin Qara Qarayev haqqında söylədiyi dəyərli fikirlər də yer alır.



Sərgi müxtəlif başlıqlarda ola bilər: ***“Səmaya yüksələn bəşəri musiqi”, “Zamanları yarıb keçən musiqi”, “Unudulmaz sənətkar”, “Qüdrəti hüdudsuz sənətkar”, “Qara Qarayev dühası”, “Qara Qarayevi xatırlarkən”, “Azərbaycan musiqi məbədinin ən etibarlı dayağı”, “Azərbaycan musiqisinin dahi sənətkarı”, “Bütün nəsillərin müasiri”, “Könül nağməkarı”, “Qara Qarayevin ölməz irsi”*** və s.


QARA
QARAYEV
tələbələrinin
xatirəsində


Qara
Qarayev


QARA QARAYEVİ ANARKƏN
ВСПОМИНАЯ КАРА КАРАЕВА


AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ
QARA QARAYEV
BİBLİOQRAFİYA


AİDA TAĞIZADƏ
XX ƏSR
AZƏRBAYCAN MUSİQİSİ
Molto sostenuto


Legends


AZERBAIJAN
IRS
Music, Music...


НАУЧНО
ПУБЛИЦИСТИЧЕСКОЕ
НАСЛЕДИЕ


MUSİQİ
DÜNYASI
1-2/2001

## Görkəmli şəxsiyyətlərin Qara Qarayev haqqında söylədikləri fikirlər:

Qara Qarayev bizə özünün bədii dəyərinə görə valehedici irs qoyub getmişdir. Qara Qarayevin adı mütəfəkkir alim, görkəmli publisist kimi Azərbaycan elminin tarixinə yazılmışdır. Bəstəkar, pedaqoq, alim, rəhbər, ictimai xadim olan Qara Qarayev həmişə və hər işdə alovlu-musiqiçi tribundur. Qara Qarayevin adı, onun musiqisi ölməzdir. İllər, on illər keçəcək, bizim kimi yeni-yeni nəsillər də gözəlliyi Qara Qarayevin əsərləri vasitəsilə dərk edəcəklər. Q.Qarayev bizə dəyərinə görə valehedici irs qoyub getmişdir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Zəmanəmizin görkəmli sənətkarının fəlsəfi məna və ümumbəşəri duyğuların zənginliyi ilə səciyyələnən böyük irsi müəllifinə dünya şöhrəti gətirməklə yanaşı, Azərbaycan professional musiqisinin beynəlxalq aləmdə tanınmasında xüsusi əhəmiyyət kəsb etmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Qara Qarayev yaradıcılığı Azərbaycan musiqi sənəti tarixinin özünəməxsus və parlaq səhifələrini təşkil edir. Mədəni irsimizin qorunmasında, inkişaf etdirilməsində, təbliğində, dünya miqyasında tanınmasında bəstəkarın xidmətləri danılmazdır.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

Qara Qarayev özünəməxsus bir yol seçmiş, mənsub olduğu xalqın musiqi mədəniyyəti əsasında yeni söz deyə bilmiş, novator bir bəstəkar kimi sənətkarlığın yeni pilləsinə qalxa bilmişdir. Onun yaratdığı əsərlərdə xalqın doğma ruhu duyulur.

Bəstəkar iki balet əsəri ilə dünya musiqi mədəniyyəti aləminə iki geniş pəncərə açdı. Qara Qarayev xalqının musiqi irsini həssas bir duyumla dinləyə bilmiş, bu irsin üfüqlərini müasir texniki imkanlara aça bilmiş, yeni çalarlarını kəşf etmiş, yaratmışdır.

**Rəsul Rza,**
*Xalq şairi*

Qara Qarayevin musiqisi əsl müasir musiqidir. Bizim günlərin musiqisidir, adamların kosmosu fəth etməsi dövrünün musiqisidir. Bu musiqidə günəş və cənub ehtirası var, ay və şimal romantikası var.

**Nazim Hikmət,**
*türk şairi*

Qara Qarayevin yaratdığı musiqi təkcə bərəkətli Azərbaycan torpağının, onun orijinal mədəniyyətinin inciləri deyil, bütün dünya musiqisinin bəzəyidir. Q. Qarayev bir də ona görə ölməzdir ki, tərbiyə etdiyi bəstəkarların böyük bir dəstəsini qoyub getmişdir. Həmin bəstəkarlar onun işini davam etdirəcəklər. Q. Qarayev sənəti-əzəmətli Azərbaycan musiqi məbədinin ən etibarlı dayaqlarından biridir və bu musiqinin dünya şöhrəti qazanmasında onun rolu böyükdür... İstedad üstəgəl əmək – bizim ictimai həyatımızda, mədəniyyətimizdə Q. Qarayev sənətinin mahiyyəti və pafosu bax bundadır.

**Fikrət Əmirov,**
*Xalq artisti*

Qara Qarayevin musiqisi, onun xeyirxah, gülər gözləri həmişə sevinc, mehribanlıq, səmimiyyət və müdriklik saçırdı. Qara Qaryevin musiqisi əyləncəyə və sakitliyə çağırmır, əksinə sözün həqiqi mənasında ürəkdən od qoparır, canlı fəaliyyətə sövq edirdi. Taleyimə minnətdaram ki, musiqi ilə mən də

təmasda olmuşam. Xoşbəxtəm ki, yaratdıqlarının əksəriyyəti ilə tanış olmağı Qara Qarayev ilk dəfə mənə etibar edib.

**Niyazi,**
*Xalq artisti, dirijor, bəstəkar*

Azərbaycan musiqisini dünya mədəniyyətinin ənənələri, çağdaş üslub təmayülləri, yeni nəzəri-estetik prinsiplərlə zənginləşdirən Q. Qarayev milli musiqi təfəkkürünü yeni səviyyəyə qaldırmış, Azərbaycan bəstəkarlıq məktəbinin inkişafına güclü təkan vermişdir.

**Fərhad Bədəlbəyli,**
*Xalq artisti*

Qara Qarayevin yaradıcılığı sadəcə olaraq orijinal istedad sahibinin görkəmli əsərləri deyildir. Bu, XX əsr musiqi sənətinin zirvələrindən biridir, özündə dövrün yüksək ideallarını, vətəndaşlığı və vətənpərvərliyi təcəssüm etdirən hadisədir.

**Həsən Abdullayev,**
*akademik*

Qara Qarayevin hər bir əsəri Azərbaycan musiqisinin inkişafında mühüm mərhələ olmuş, gənc musiqiçilər üçün geniş üfüqlər açmışdır. Q. Qarayevin novatorluğu onun milli və dünya musiqi sənətində təşəkkül tapmış klassik ənənələrə ən dərin hörmətindən irəli gəlir. Bəstəkarın yeni-yeni axtarışlar üçün möhkəm təməl olan cəsarətli, qeyri-adi üsullarının yaradıcılıq ölməzliyi də bundan ibarətdir.

**Elmira Abasova,**
*Əməkdar incəsənət xadimi*

Qarayev musiqisi ömrümüzün hər çağında könlümüzü ümidlə, qürurla, qüvvətlə doldururdu, ovundururdu, bizə dünyanı izah edirdi, gələcəyə inandırmağa çağırırdı. Q. Qarayev mədəniyyətimizdə gələcəyin səfiri idi, sabahın elçisi idi və

musiqimiz, musiqiçilərimiz, musiqi dinləyicilərimiz inkişaf edib irəlilədikcə qarşıdakı zirvələrdə həmişə Q.Qarayevlə rastlaşacaqlar.

**Anar,**
*Xalq yazıçısı*

Biz Q. Qarayevin adını müasir incəsənətin ən yaxşı, ən görkəmli xadimləri sırasında çəkirik. O, öz yaradıcılığı ilə Azərbaycan musiqisi üçün yaxın və uzaq ölkələrin ən böyük teatrlarına, ən yaxşı konsert səhnələrinə yol açmışdır. Bəstəkar öz xalqının musiqisini dünya musiqi mədəniyyəti orbitinə çıxarmışdır. Onun yaradıcılıq fəaliyyətinin tarixi əhəmiyyəti də bundadır. Q. Qarayev dünya incəsənətini öz xalqının musiqisi, özünün təkrarsız, orijinal istedadı və böyük sənətkarlığı ilə zənginləşdirmişdir.

**D.Kabalevski,**
*bəstəkar, SSRİ Xalq artisti*

Azərbaycanın görkəmli bəstəkarı Q.Qarayevin musiqisi sovetlər ölkəsinin çoxmillətli mədəniyyətində ən parlaq hadisələrdən biridir. Onun təkrarolunmaz fərdi dəsti-xəttinin fərqləndirici xüsusiyyəti əsərlərində milli və beynəlmiləl keyfiyyətləri üzvi şəkildə birləşdirməsindədir.

**Tixon Xrennikov,**
*bəstəkar, SSRİ Xalq artisti*

Qara Qarayevin böyük və parlaq bəstəkarlıq istedadı var. Ümumi inkişafı son dərəcə yüksək səviyyədədir. Bu musiqi qabiliyyəti və mədəniyyəti olan bəstəkardır. O alətşünaslıq, polifoniya və musiqi sənətinin digər bölümlərinə əla yiyələnmişdir. Qarayev gələcəyi şübhə doğurmayan, daim axtarışda olan bəstəkardır. Onun yaradıcılıq uğurlarının sirri milli ənənələri, klassik irsi və ən çağdaş formaları birləşdirən parlaq istedadlı, yalnız özünə xas olan dəst-xəttidir. Onun

musiqisinin müvəffəqiyyətinin sirri xalq ənənələrini klassik irsin ən müasir musiqi formalarında parlaq istedadla, ancaq onu özünə xas olan tərzdə birləşdirilməsindədir.

**Dmitriy Şostakoviç,**
*professor, bəstəkar, SSRİ Xalq artisti*

Müasirlik bəstəkarlarımızın diqqət mərkəzində durmalıdır. Bunu bizdən xalqımız və həyatımız tələb edir. Müasir həyatımızı tərənnüm edək Q.Qarayevin bu sözləri sadəcə bir şüar deyil, əsl yaradıcılıq proqramıdır, bir bəstəkarı dövrümüzə layiq parlaq sənət nümunələri yaratmağa çağıran yaradıcılıq proqramıdır. Biz Q.Qarayev musiqisində bəşəriyyəti tərəqqiyə çağıran müasir bəstəkarın alovlu səsini həmişə eşidir və eşidəcəyik.

**Azər Rzayev,**
*professor, bəstəkar*

Dərin milli sənətkar olan Qarayev milli məhdudluqdan tamamilə uzaqdır. Ü.Hacıbəyovla birlikdə onu cəsarətlə müasir Azərbaycan musiqi mədəniyyətinin banisi adlandırmaq mümkündür. Müəlliminin ənənələrini davam etdirən Qarayev sözün əsl mənasında bütün janrlarda yaradır... Azərbaycan musiqisində bu janrların çoxunu əməli surətdə məhz Q.Qarayev kəşf etmişdir. Ümumiyyətlə, onun yaradıcılığı milli musiqi mədəniyyəti üçün elə bil yeni pilləyə, yeni keyfiyyətə keçiddir. Azərbaycanın yeni musiqisinin dünya meydanına çıxması Qarayevin adı ilə qırılmaz surətdə bağlıdır. O, yeni milli bəstəkarlıq məktəbi yaratmışdır.

**Rodion Şedrin,**
*bəstəkar, SSRİ Xalq artisti*

Q.Qarayevin musiqisi, onun istedadı, pedaqoqluq məharəti, musiqi haqqındakı dərin fikirləri, ümumiyyətlə, gərgin əməyi keçmiş sovet mədəniyyəti xəzinəsinə möhkəm daxil olmuşdur.

Biz hamımız uzun müddət bu xəzinədən bəhrələnəcək, bilik əxz edərək ilham alacağıq.

**Q.Q.Paman,**
*Latviyanın Əməkdar incəsənət xadimi*

Qara Qarayev milli mədəniyyətin inkişafında yeni yollar açan cəsarətli, novator sənətkardır. O, geniş yardıcılıq vüsətinə malik ustaddır.

**Nikolay Tixonov,**
*rus şairi*

Qara Qarayevin musiqisi ilə görüş həmişə böyük sevinc gətirirdi, eyni zamanda mürəkkəb həyat problemləri haqqında dərin düşüncələr doğururdu. Zaman xatirələri soldurmağa qadir deyildir... İllər, on illər keçəcək, lakin yeni-yeni nəsillər Q.Qarayev musiqisinin zəngin xəzinəsinə qovuşmaq və ondan heç vaxt ayrılmamaq üçün həmişə canlı yaradıcılıq çeşməsinə gələcəklər.

**Nodar Dumbadze,**
*gürcü yazıçısı*

Q.Qarayev dünya miqyasında adlı-sanlı bəstəkardır. Onun musiqisi öz vüsəti, forma kamilliyi ilə dinləyicini həmişə valeh edir. Bəstəkarın nəcib ideallarla – humanizm, beynəlmiləlçilik idealları ilə aşılanmış yaradıcılığının dinləyicilər tərəfindən rəğbətlə qarşılanması geniş kütləyə məlumdur. Mən bunu İstanbulda konsert zamanı bir daha yəqin etdim. Orada yerli simfonik orkestrin ifasında "İldırımlı yollarla" baletindən məşhur süita əzəmətlə səsləndi. Qarayevin vəfatı təkcə ölkə musiqi mədəniyyəti üçün deyil, eləcə də bütün dünya musiqi mədəniyyəti üçün də ağır itkidir. Ancaq onun musiqisi ölməzdir.

**Gülay Uğrata,**
türk pianoçusu

## Qara Qarayev məktəbi onun həyatının davamıdır

Qara Qarayev dahi bəstəkar və dahi müəllim idi. Çünki müəllimlik də bir vergidir. Dərs demək üçün istək azdır, bunu bacarmaq lazımdır. Q.Qarayevin müəllim kimi ən başlıca xüsusiyyəti ondan ibarət idi ki, onun sinfində oxuyan tələbələrin mənliyini, şəxsiyyətini aça bilirdi. Buna görə də onun tələbələrindən hər biri yolunu tapıb. Q.Qarayev müəllimliyi sevirdi. Onun həmişə böyük sinfi olub. Maraqlı idi ki, Q.Qarayevin dərslərində tələbələr ancaq ixtisasla məşğul olmurdu. Burada ədəbiyyat haqqında, musiqidən kənar mövzularda söhbətlər gedirdi. Bunlar hamısı tələbənin şəxsiyyət kimi yetişməsində böyük rol oynayırdı. Q.Qarayevin dərsləri haqqında böyük bir kitab yazmaq olar. Onun nə qədər tələbələri olub. Bəstəkarlıq belədir ki, müəllimlə tələbənin ünsiyyəti yaranmalıdır. Q.Qarayevin sinfində tələbələr istedadına görə fərqlənirdilər. Onların yaş fərqi də müxtəlif idi. Q.Qarayev hər tələbə ilə müxtəlif üslubda, tələbənin qabiliyyətinə uyğun məşğul olur, yol göstərirdi. Tələbələr Qara müəllimin sinfində zövq barəsində böyük inkişaf keçirdilər. Q.Qarayev həmişə özünə tələbkar və tənqidi yanaşırdı. Onun bir tələbəsini digəri ilə müqayisə etmək olmur. O çalışırdı ki, hər tələbənin daxili imkanlarını üzə çıxarsın və buna nail olurdu. Bu da onun müdrikliyindən, uzaqgörənliyindən irəli gəlirdi. Q. Qarayev həm də gözəl pedaqoq idi. O, 35 illik müəllimlik fəaliyyəti dövründə (Azərbaycan Dövlət Konservatoriyasında) 70 nəfərə yaxın professional, indi adları dünyanın hər tərəfindən eşidilən bəstəkarlar nəsli yetişdirmişdir. R.Hacıyev, F.Əlizadə, A.Məlikov, H.Xanməmmədov, V.Adıgözəlov, X.Mirzəzadə, O.Zülfüqarov, T.Bakıxanov və başqaları məhz Q.Qarayevin yetirmələridir.

## Qara Qarayev şagirdlərinin dilindən

**Rauf Hacıyev:** Azərbaycan bəstəkarlıq məktəbinin inkişaf prosesi bu insanın adı ilə sıx bağlıdır. Şagirdinə yüksək mənəvi dəyərlər aşılamaq Q.Qarayev üçün əsərlərimizin üstünlüklərini və çatışmazlıqlarını nəzərimizə çatdırmaq qədər əhəmiyyətli idi.

**Vasif Adıgözəlov:** Gözəlliyi duyub-anlamaq, həyatın təzadlarını biri-birindən ayırmaq və bunları öz yaradıcılığımda əks etdirmək bacarığını mən müəllimim Qara Qarayevdən öyrənmişəm. Sənətə olan məhəbbət mənə ondan yadigar qalıb.

**Xəyyam Mirzəzadə:** Q. Qarayevlə hətta ən gözlənilməz görüş Ustadın eyni sualı ilə başa çatardı: "Nə zaman əsər göstərəcəksən?" Və hər bir əsərə baxış və araşdırma hər birimizin taleyində son dərəcə maraqlı Böyük İnsan və Böyük Ustadın olduqca dəyərli tövsiyələri ilə başa çatan yeni, daha məsul bir imtahan kimi yozulurdu.

**Məmməd Quliyev:** Qara Qarayev olmasaydı, mənim bəstəkarlığım, yəqin ki, şübhə altındaydı. Mən sənətimlə, deməli, varlığımla ona borcluyam. Qara Qarayevlə bir neçə saatlıq söhbət etmək aylarla cürbəcür elmlərə aid kitablar oxumaqdan daha üstündür.

**Afaq Cəfərova:** Lap başlanğıcdan Qara Qarayev yeni şagirdləri ilə ayrı-ayrı bəstəkarlıq məktəblərinin özəl cəhətləri kimi dil – üslub və quruluş, yazı texnikası, ifadə yolları, eləcə də musiqiçi zövqünün və bədii duyumun yetkinləşməsi məsələlərini nəzərdən keçirməyi lazım bilirdi.

**Sevda İbrahimova:** Qara Qarayevin misilsiz dərsləri... Onun bütün tələbələrə doğmalığı, ata qədər əzizliyi unudulmazdır. Yazdığın əsəri bəyənirdisə, sən göylərə uçmaq istəyirdin.

**Nərgiz Çəfiyeva:** Böyük müəllimimiz Q.Qarayev qəlbinin müdrik ziyası, qüdrətli sənətkar sözünün güclü məntiqi ilə biz şagirdlərin düşüncələrini daim kamillik Yüksək Sənət anlamına çatdırmağa qadir olmuşdur.

**İsmayıl Hacıbəyov:** Q. Qarayev bizi texniki ixtiraçılığa həvəsləndirərək, hər bir səs xəttinin, hər bir notun tutarlı lazımlılığı ilə şərtlənən musiqidə məntiqlə düşünməyi öyrədirdi. Çünki yalnız sənətin bütün incəliklərinə yiyələnmiş sənətkar, Böyük Sadəlik məqamına yetişə bilər ki, həmin məqamda musiqi təbiətin gerçək olayı kimi yozulur.

**Firəngiz Əlizadə:** Qara Qarayevin dərsləri arasında oxşarını tapmazdın. Yalnız bircəciyi təkrarlanırdı: düz vaxtında, qəti addımlarla, alnıaçıq sinifə girən Ustad hamı ilə əl tutub görüşərdi. Görüşdükləri bu “hamı” isə sayca az deyildi: hazırkı və keçmiş tələbələri, qonaqlar və sadəcə maraqlananlar. Öz qısa salamlaması ilə o, hər bir kəsə bir növ sual verərək sinifdə baş verənlər barədə öncədən bilgi alardı ki, həmin alınan bilgilər dərsin gedişində öz əksini tapırdı.

**Azad Zahid:** Qara Qarayev həyatımda ən işıqlı xatirədir. O, özünəməxsus bir yol seçmiş, mənsub olduğu xalqın musiqi mədəniyyəti əsasında yeni söz deyə bilmiş, novator bir bəstəkar kimi sənətkarlığın yeni pilləsinə qalxa bilmişdir.

## Oxucu konfransı

Kitabxanalarda Qara Qarayevin 100 illik yubileyi münasibətilə ***"Səmaya yüksələn bəşəri musiqi"*** adlı konfransın təşkili məqsədəuyğundur. Konfransdan öncə onun proqramı tərtib edilməli, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, bəstəkarların, konservatoriyanın, musiqi texnikumunun tələbələrinin və məktəblilərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə: ***"Səmaya yüksələn bəşəri musiqi"***
2. Bu mövzuda kitabxana rəhbərliyinin, bəstəkarların, tələbələrin, musiqi məktəblərinin şagirdlərinin, gənclər təşkilatlarının aparıcı şəxslərinin çıxışları;
3. Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların bu mövzuda hazırladığı slaydların təqdimatı;
4. Konfransın yekunu.

## Biblioqrafik icmal

Dünya şöhrətli bəstəkarımız Qara Qarayevin xatirəsini əbədiləşdirmək üçün kitabxanalarda biblioqrafik icmalların təşkili məqsədəuyğundur. Biblioqrafik icmalın birinci hissəsində kitabxanaçı oxuculara Qara Qarayevin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verir. Sonra isə kitabxananın fondunda olan Qara Qarayev haqqında olan ədəbiyyatlar əsasında bibloqrafik icmal edir.




**Qara Qarayev – tələbələrinin xatirəsində** – adlı kitabda esse, oçerk, portret cizgiləri və foto sənədlər toplusu 2009-cu ildə Bakı “Şərq-Qərb” nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Kitab – fotoalboma daxil olan xatirələr bəstəkarın çoxnəsilli tələbələrinə məxsusdur. Bu xatirələrin fonunda bəstəkarın müxtəlif yaradıcılıq dövrlərinə aid yadda qalan anları çoxsaylı fotoşəkillərlə təmsil olunur. Kitabda Qara Qarayevin yaradıcılıq fəaliyyətinin bütün sahələri xronoloji ardıcıllıqla işıqlandırılmışdır. Kitab peşəkar musiqiçi mütəxəssislərinə, musiqi elmi tədqiqatlarına və ümumən musiqisevər insanlara ünvanlanır.




**“XX əsr Azərbaycan musiqisi”** kitabında musiqişünas, alim və pedaqoq, Əməkdar incəsənət xadimi, professor Aida Tağızadənin müxtəlif illərdə Azərbaycanda və xaricdə nəşr olunmuş elmi, tənqidi, publisistik məqalələri toplanmışdır. Əsas bölmələrdə Azərbaycan bəstəkarlarının, portretləri, musiqi həyatının hadisələri ilə bağlı düşüncələr qələmə alınmışdır. Toplu Azərbaycan musiqisi ilə maraqlanan oxucular, mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Kitab 2011-ci ildə “Elm və təhsil” nəşriyyatında çap olunmuşdur.




**“Qara Qarayevi anarkən”** adlı kitabda böyük bəstəkar və alim Qara Qarayevə həsr edilmiş elmi konfransın materialları məqalələr toplusu şəklində təqdim edilmişdir. Kitabın ön sözündə Qara Qarayevin yaradıcılığının xasiyyətnaməsi verilmiş, məqalələrdə bəstəkar xalq musiqisinin bilicisi, alim mütəfəkkir, simfoniyaçı kimi təqdim edilmişdir. Kitabda həmçinin onun teatr, opera musiqisi, vokal yaradıcılığında musiqi ilə mətnin qarşılıqlı əlaqəsi, “Çılğın qaskoniyalı” muzikli haqqında araşdırmalar öz əksini tapmışdır. Toplu Azərbaycan və rus dillərindədir.




**Qara Qarayev: Biblioqrafiya.** Kitab 2008-ci ildə nəşr olunmuşdur. Tərtib edənlər: R. Orucəliyeva, H. Haşımova və başqaları. Elmi red. və ön sözün müəllifi.:Z.Səfərova; Kitab Q.Qarayevin 90 illik yubileyi münasibətilə M. F. Axundov adına Milli Kitabxanada Azərbaycan və rus dillərində hazırlanmışdır.




**Qara Qarayev: Oçerklər.** Kitab 2003-cü ildə “Çinar-Çap” nəşriyyatı tərəfindən çap olunmuşdur. Qara Qarayev haqqında məqalələr toplusu dahi bəstəkarın çoxşaxəli yaradıcılığına həsr olunmuşdur. Kitabda məqalə müəllifləri Q.Qarayevin musiqi əsərlərini XX əsr Azərbaycan musiqisinin tarixi, nəzəri, estetik problemləri kontekstində araşdırırlar.

## Sual – cavab gecəsi

Qara Qarayevin 100 illik yubileyi münasibətilə keçirilən tədbirlərdən biri də sual-cavab gecəsidir. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən hazırlanır. Kitabxanaçı əvvəl görkəmli bəstəkar haqqında məlumat verir. Sonra isə sualları oxuculara paylayır. Suallara ən dolğun cavab verən oxucu kitabxananın müdiriyyəti tərəfindən mükafatlandırılır.

**Suallar:**

1. Qara Qarayev kimdir?
Görkəmli Azərbaycan bəstəkarı və pedaqoqu. SSRİ Xalq artisti Qara Qarayev böyük bəstəkar olmaqla bərabər, həm də zəngin dünya görüşə, ensiklopedik biliyə, iti zəkaya malik alim, mütəfəkkir idi. O, dünya musiqi elminin son nailiyyətlərini böyük dəqiqliklə öyrənmiş, mənimsəmiş, dünya musiqisinin, eləcə də ədəbiyyatının, rəssamlığının, teatrının gözəl bilicisi olmuşdur.
2. Qara Qarayevin hansı operaları ilə tanışsınız?
Cavab: “Vətən”, “Zəriflik” .
3. Bəstəkarın baletlərindən hansının adını çəkə bilərsiniz?
“Yeddi gözəl”, “İldırımlı yollarla” baletləri.
4. Qara Qarayevin hansı vokal-simfonik əsərləri var?
“Könül nəğməsi”, “Səadət nəğməsi”.
5.Qara qarayevin orkestr üçün əsərləri hansılardır?
“Leyli və Məcnun” simfonik poeması,“Yeddi gözəl” simfonik suitası, “Don Kixot” simfonik qravürləri.
6.Qara Qarayevdən bəhs edən filmin adı nədir?
Filmin adı “Bu, həqiqətin səsidir”.
7. Film neçənci ildə çəkilmişdir?
1968-ci ildə.
8.Qara Qarayevin uşaqlar üçün bəstələdiyi mahnıların adı nədir?
“Gənclik mahnısı”, “Dəniz neftçiləri haqqında mahnı”, “Dənizi fəth edənlər”, “Sülh haqqında mahnı”, “Yeddi gözəl” baletindən “Vals”.

9. İslam Səfərlinin Qara Qarayevə həsr etdiyi şeirin adı nədir?
"Səslər zirvəsi".
10.Qara Qarayevin musiqisini bəstələdiyi filmlərdən, tamaşalardan hansının adını çəkə bilərsiniz?
"Leyli və Məcnun", "Tarixin ibrət dərsi", "Uzaq sahillərdə", "Bir məhəlləli iki oğlan", "Dənizi fəth edənlər", "Qızıl eşelon", "Xəzər neftçiləri haqqında povest" və digər kinofilmlərə, "Nikbin faciə", "Antonio və Kleopatra" tamaşalarına və s.

## Oxucularla söhbət

Qara Qarayevin 100 illik yubileyi ilə bağlı kitabxanada **"Sənətin zirvəsini fəth edən sənətkar"** adlı məktəblilərlə sərgi ətrafında söhbətin də keçirməsi məqsədəuyğundur. Kitabxanaçı söhbəti əsasında həm Qara Qarayevdən bəhs edən, həm də əsərlərindən istifadə edilən filmlər haqqında da məlumat verir.

Əsərlərindən istifadə edilən filmlər: Doğma xalqıma (film, 1954) (tammetrajlı bədii-sənədli film); 150 il. Mirzə Fətəli Axundov (film, 1962) (qısametrajlı sənədli film); Üçüncü simfoniya (film, 1968) (qısametrajlı sənədli film); Abşeron ritmləri (film, 1970) (tammetrajlı musiqili-bədii televiziya filmi); Dostluq himni (film, 1974) (qısametrajlı sənədli film); Əfsanələr aləmində (film, 1975) (qısametrajlı bədii film) (Rusiya); Nəğməkar torpaq (film, 1981) (tammetrajlı musiqili film); Əlvida, cənub şəhəri (film, 2006) (tammetrajlı bədii film); 40-cı qapı (film, 2008) (tammetrajlı bədii film); Həqiqətin özü (film, 2008) (tammetrajlı sənədli film); Ölüm növbəsi (film, 2009) (tammetrajlı bədii film); Üfüqü ötənlər (film, 2011) (tammetrajlı bədii-sənədli film).

Haqqında çəkilən filmlər: Bu, həqiqətin səsidir. Bəstəkar Qara Qarayev (film, 1968) (qısametrajlı sənədli film), Qara Qarayev – 60 (film, 1978) (qısametrajlı sənədli film), Bəstəkar Qara Qarayev. Opus – 78 (film, 1979) (qısametrajlı sənədli film).

**Kitabxanaçı:** Qara Qarayevdən bəhs edən filmlərdən biri "**Bu, həqiqətin səsidir"** adlanır. Bu qısametrajlı sənədli film rejissor Oqtay Mirqasımov tərəfindən 1968-ci ildə çəkilmişdir. Filmin ssenari müəllifləri Rüstəm İbrahimbəyov və Oqtay Mirqasımovdur. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilmişdir. Filmin rəssamı Fikrət Bağırovdur. "**Bu, həqiqətin səsidir"** filmi 1969-cu ildə Kiyevdə III Zaqafqaziya və Ukrayna respublikaları filmlərinin "Prometey-69" zona kinofestivalında sənədli filmə mükafat verilmişdir. Azərbaycan sənədli kinosunda irəliyə doğru addım hesab edilən bu kinolenti novator film-esse adlandırırlar. Sənədli film dövrümüzün ən böyük sənətkarı, SSRİ Xalq artisti, Lenin Mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin həyat və yaradıcılıq yollarına həsr olunmuşdur. Filmdə onun əsərləri səslənir, bəstəkar haqqında müasirləri danışırlar. Burada bəstəkarın daxili aləmi, onun yaradıcılıq laboratoriyası, özünəməxsus iş üsulu, pedaqoji fəaliyyəti əks olunmuşdur. Onun özünün söhbətləri, anası Sona xanımın çıxışı da filmə daxil edilmişdir. Film-essedə Qara Qarayevin ən həyəcanlı anları – onun iş zamanı musiqi aləminə uyuduğu vaxtlar "gizli kamera" ilə çəkilmişdir. Filmin ən təsirli epizodlarından biri Qara Qarayevin skripkaçalan L. Koqanla məşq etməsi səhnəsidir. Bu, iki böyük sənətkarın çox mühüm yaradıcılıq apofeozudur. *Söhbətin sonunda kitabxanaçı məktəbliləri oxu zalında bəstəkar Qara Qarayevdən bəhs edən "Bu, həqiqətin səsidir" filminə baxmağa dəvət edir.*



## Kitab müzakirəsi

Həmçinin Qara Qarayevdən bəhs edən **kitab müzakirəsi** də oxucular üçün çox böyük marağa səbəb olar. Kitabxanaçı əvvəlcədən müzakirəsini keçirdəcəyi kitabla ətraflı tanış olur və topladığı məlumatları müzakirə zamanı oxucularına çatdırır.

**Kitabxanaçı:** Son illər muzeylərimizin nəşriyyat sahəsində fəaliyyəti xeyli genişlənib. Müstəqil bir elm sahəsi olaraq muzeyşünaslığın yaranması və müəyyən inkişaf yolu keçməsi bu işə xüsusi təkan verir. İndi muzey materiallarından istifadə etməklə dissertasiyalar yazılır, kitablar, çoxsaylı məqalələr işıq üzü görür. Bu siyahıya yeni bir nəşr də əlavə olunub. Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr olunmuş kitab "Qara Qarayev. Həyat və yaradıcılığı Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin materiallarında" adlanır. Layihənin rəhbəri və kitabın elmi redaktoru Alla Bayramova, məsləhətçi Züleyxa Qarayeva-Bağırova, tərtib edəni Alla Fyodorovadır. Kitab böyük Azərbaycan bəstəkarı Qara Qarayevin həyat və fəaliyyətinin müəyyən məqamlarını əks etdirir. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın kitaba yazdığı ön sözdə oxuyuruq: "Qara Qarayev yaradıcılığı Azərbaycan musiqi sənəti tarixinin özünəməxsus və parlaq səhifələrini təşkil edir. Mədəni irsimizin qorunmasında, inkişaf etdirilməsində, təbliğində, dünya miqyasında tanınmasında bəstəkarın xidmətləri danılmazdır".

Kitabda toplanmış materiallar vasitəsilə Qara Qarayevin xalqımız və mədəniyyətimiz qarşısında göstərdiyi böyük xidmətlərin müəyyən hissəsi ilə tanış ola bilirik. Muzeyin fondunda 50 mindən artıq əşya var. Onların arasında Qara Qarayevə aid materiallar da mühüm yer tutur. Bunlar Qara Qarayevin və yaxınlarının, müəllim və tələbələrinin fotoşəkilləri, məktublar, not və mətnlərin əlyazmaları, afişalar, proqramlar, təsviri sənət nümunələri, kitablar və s. ibarətdir.




Məlumdur ki, profilindən asılı olmayaraq muzey işində fotoşəkillər mühüm yer tutur və ekspozisiyanın əsasını da məhz fotoşəkillər təşkil edir. Ona görə ki, hər bir fotoşəkil özündə müəyyən tarix yaşadır. Kitabı ərsəyə gətirənlər də bu prinsipə sadiq qalmışlar. Kitabı vərəqləyən oxucu həmin anlarda muzey seyrçisinə çevrilir və bəstəkarın həyatını əks etdirən muzeyin ilk əşyaları ilə tanış olur. Qara Qarayevin 1920-ci ildə çəkilmiş fotoşəkli oxucunu özünə cəlb edir. Daha sonra onun babası İsgəndər bəy Axundov və nənəsi Züleyxa Bayraməlibəyovanın, valideynləri Əbülfəz Qarayev və Sona Axundovanın, ilk musiqi müəllimləri Vladimir Kozlov və Georgi Şaroyevin fotoşəkilləri təqdim olunur. İllər keçir... Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi Qara Qarayev öz müəllimləri və tələbə dostları arasındadır. Daha bir fotoşəkildə bəstəkar öz böyük ustadı Üzeyir Hacıbəyovla birlikdə dərs zamanı əbədiləşmişdir. Fotoşəkillərə baxdıqca Qara Qarayevin zirvəyə gedən yolda inamla addımladığının şahidi olursan. Fotoşəkillər bizi Qara Qarayevin müəllimləri, müasirləri və tələbləri ilə tanış edir. Bu fotolarda o, həmin şəxslərlə bir yerdədir: Dmitri Şostakoviç, Niyazi, Bülbül, Fikrət Əmirov, Mirzə İbrahimov, Süleyman Rüstəm, Cövdət Hacıyev, Tofiq Quliyev, İsmayıl Hidayətzadə, Səid Rüstəmov, Rauf Hacıyev və bir çox başqaları. Kitabda bir maraqlı fotoşəkil də var. 1972-ci ildə respublikamızda Rusiya Federasiyasının “Ədəbiyyat və incəsənət günləri” keçirilərkən çəkilib. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev böyük musiqi xadimləri ilə bir yerdədir. Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Şövkət Məmmədova, Rauf Hacıyev, Tofiq Quliyev, Elmira Abasova, habelə rus-sovet bəstəkarı Serafim Turikov Ulu öndərin əhatəsindədir. Bu fotoşəkil Heydər

Əliyevin mədəniyyətimizə və mədəniyyət xadimlərimizə diqqət və qayğısının ifadəsidir.

Qara Qarayevi məşhurlaşdıran, təbii ki, onun əsərləri olmuşdur. Bəstəkar bir sıra tamaşalara və kinofilmlərə də musiqi bəstələmişdir. Kitabda yer almış afişa və proqramlar bu barədə geniş məlumat verir. Bu materiallar sırasında müəllifin müxtəlif teatrlarda tamaşaya qoyulmuş "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərinin, habelə bəstəkarın musiqi bəstələdiyi teatr tamaşalarının, Azərbaycanda, keçmiş SSRİ-nin müxtəlif kinostudiyalarında çəkilmiş bir sıra filmlərin, bir çox konsertlərin afişa və proqramları var. Onların ünvanları da müxtəlifdir: Bakı, Moskva, Sankt-Peterburq, Tbilisi... Kitabda bəstəkarın müxtəlif təşkilatlara, ayrı-ayrı şəxslərə yazdığı məktublardan da nümunələr verilmişdir. Biz bu məktubları oxuyarkən onu nəcib insan, qayğıkeş ailə başçısı, xeyirxah müəllim və musiqi təşkilatçısı kimi görür və bununla fəxr edirik. Mədəniyyətimizin, o cümlədən musiqimizin xüsusi qayğı ilə əhatə olunduğu bir dövrdə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin ərsəyə gətirərək oxuculara təqdim etdiyi bu nəşr Qara Qarayev irsinin təbliğinə sanballı töhfədir. Oxucular burada verilmiş müxtəlif səpkili materiallar vasitəsilə bəstəkarın həyat və fəaliyyətinin indiyədək məlum olmayan tərəfləri ilə tanış olacaqlar və bütün bunlar Qara Qarayev sənətinin və şəxsiyyətinin böyüklüyü barədə təsəvvürləri daha da genişləndirəcək. Bu kitab gələcəkdə böyük bəstəkarımız Qara Qarayevin həyatı və fəaliyyəti, eyni zamanda, musiqi mədəniyyətimizin parlaq bir dövrü barədə tədqiqat işlərinin aparılmasında əvəzsiz bir mənbə rolunu oynayacaq.

## Rəsm, inşa müsabiqəsi

Kitabxanada Qara Qarayevin yubileyi ilə əlaqədar məktəblilər arasında *"Azərbaycan musiqisinin dahi sənətkarı"* adlı rəsm müsabiqəsi təşkil etmək olar. Məktəblilər Qara

Qarayevin məşhur əsərlərinə qulaq asdıqdan sonra beyinlərində həmin əsərləri canlandırıb, sonra rəsmlərini çəkirlər. Həmçinin bəstəkarın əsərlərini dinlədikdən sonra uşaqlar bu əsəri qum üzərində də öz təxəyyüllərində canlandırdığı kimi işləyə bilərlər. "Dahi bəstəkarımız Qara Qarayev haqqında düşüncələrim" mövzusunda **inşa yazı müsabiqəsi**nin də təşkili məqsədəuyğundur. Bu məqsədlə kitabxananın girəcəyində keçiriləcək müsabiqənin elanı asılır. Orada tədbirin keçirilməsi ilə bağlı bütün şərtlər göstərilir. Müsabiqəyə hazırlıq məqsədilə bir həftə əvvəldən məktəblilər bəstəkarın həyat və yaradıcılığından bəhs edən kitabları oxuyub, bilgi toplayırlar. Müsabiqə təyin olunmuş vaxtda keçirilir. Müsabiqənin qalibləri kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır. Müsabiqədə tədbirlə bağlı məlumatlar uşaq qəzetlərində, radio verilişlərində verilərsə daha yaxşı olar. Vətən, xalq və azadlıq kimi müqəddəs mövzulara münasibətində, təmiz və pak insan eşqini tərənnüm edən musiqilərində, həmçinin uşaqlar üçün yazdığı səmimi mahnılarında coşqun, həm də saf bir romantika duyulur. Bu romantikanın kökü həyata, torpağa bağlıdır, buna görə də təsirli və təravətlidir.

## Divar qəzeti

Sənətinin əsl fədaisinə çevrilən böyük insan, istedadlı bəstəkar Qara Qarayevin 100 illik yubileyi münasibətilə kitabxanalarda, məktəblərdə divar qəzetinin hazırlanması məqsədəuyğundur. Kitabxanaçı kitabxanaya gələn daimi oxucularla bir həftə ərzində ***"Könül nəğməkarı"*** adlı divar qəzeti hazırlayır. Əvvəlcə oxucular Qara Qarayevin həyat və yaradıcılığından bəhs edən ədəbiyyatlarla tanış olub, məlumat toplayırlar. Hər oxucu bu mövzuda öz fikrini divar qəzetində qeyd edir və slayd hazırlayır. Ən yaxşı rəy bildirən, slayd hazırlayan oxucu kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır.

## Ədəbi-bədii gecə

Kitabxanada bəstəkarın həyat və yaradıcılığından bəhs edən ədəbi-bədii gecə də təşkil etmək olar. Unudulmaz bəstəkarın xatirəsinə həsr olunmuş **"Qüdrəti hüdudsuz sənətkar"** adlı ədəbi-bədii gecəyə müxtəlif sənət adamları, jurnalistlər, müəllimlər, musiqi məktəbinin şagirdləri dəvət olunur. Qonaqlar bəstəkarın şəkilləri ilə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin qonaqları ilk olaraq "**Qara Qarayev dühası**" adlı slayda baxmağa dəvət edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar. Hər iki aparıcı qonaqları salamlayaraq, onlara gecədə iştirak etdikləri üçün təşəkkürlərini bildirirlər.

**I aparıcı:** Qara Qarayevin adı Azərbaycan xalqı üçün daimi və əzizdir. Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada hər bir kəs bu dahi sənətkarın musiqi dühasının sehrinə düşməsin, onun "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərindən, "Leyli və Məcnun" simfonik poemasından xəbərsiz olsun. Q. Qarayev öz əsərləri ilə daim sevilən və insanı düşündürən sənətkardır, çünki o, həmişə doğma torpaqdan qüdrət almış, muğam, aşıq musiqisi, xalq nəğmələri kimi milli musiqimizin saf çeşməsindən su içmişdir. Qara Qarayev dedikdə nəzərimizdə dahi bəstəkar, böyük vətəndaş, sənətin zirvələrini fəth edib xalqını dünyaya bu zirvədən tanıdan bir şəxsiyyət canlanır. Üzeyir Hacıbəyli məktəbinin layiqli davamçısı olan bəstəkar novator meyilləri ilə öz üslubunu yaratmış, əsərləri milli hüdudları yararaq dünyanın müxtəlif qitələrinə yol açmışdır.

**II aparıcı:** Eyni zamanda Q.Qarayev bəşəri hörmət qazanmış sənətkardır. Çünki sənət yolunda yeni cığırlar açaraq, yalnız özünəməxsus üslub yaratmış bəstəkar təkcə öz xalqının deyil, həm də dünya musiqi tarixinin bütün dövrlərinin nailiyyətlərini mənimsəmiş, dünya musiqi mədəniyyəti xəzinəsini misilsiz əsərləri ilə zənginləşdirmişdir.

**I aparıcı:** Qüdrətli bəstəkarın irsi son dərəcə geniş və zəngindir. Bunu onun müraciət etdiyi müxtəlif janr və rəngarəng

mövzularda görmək olar. Demək olar ki, Q.Qarayev bütün janrlarda eyni coşqunluqla çalışmış, novatorluğu və bədii cəhətdən yüksək səviyyəsi ilə fərqlənən yeni əsərlər yaratmışdır. Bəstəkarın geniş şöhrət qazanmış və musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuş baletləri, simfonik poeması, simfoniyaları, kamera-instrumental əsərləri, kinofilm və teatr tamaşalarına yazılmış musiqisi bunu bir daha təsdiq edir.

*Gənclik mahnısı (Mus: Qara Qarayev, söz:Evgeni Dolmatovski)*

Dalğalı Xəzərdə biz saldıq
İlk qəhrəman bir şəhər
Bu şəhərdən bu yerdən
Görməyib heç bəşər
Bir vüqarla, iftixarla
Durur şöhrət adası
Buruqların dalğalarla
Qovğası var qovğası

**II aparıcı:** Bəstəkarın yaradıcılığı mövzu cəhətdən də çox zəngin və rəngarəng olmuşdur. Onu ən müxtəlif dövrün şair və yazıçılarının yaradıcılığı, xalq əfsanələri cəlb edirdi. Bura N.Gəncəvi, V.Şekspir, A.Puşkin, İ.Servantes, Ö.Xəyyam kimi dahi korifeylərin adları daxildir. İstər klassik Şərq, istər müasir məişət və istərsə də bir sıra dünya xalqlarının mövzularından bəstəkar eyni ilhamla və məharətlə istifadə edərək onları özünün təkrarolunmaz musiqisi ilə ölməzlik zirvəsinə qaldırmışdır.

**I aparıcı:** Q.Qarayevin ən vacib mövzulara, kəskin həyati konfliktlərə həsr olunan yüksək idealları, insan mənəviyyatının zənginliyini və gözəlliyini tərənnüm edən baletləri həqiqi insanpərvərlik ruhu ilə doludur. İncə, lirik hisslərlə yazıb-yaradan sənətkar heyranedici ustalıqla öz qəhrəmanlarının daxili aləminə nüfuz edir. Bəstəkarın baletləri Azərbaycan balet sənətinin inkişafında əhəmiyyətli və keyfiyyət etibarilə yeni bir mərhələ sayılır. Sənətkar öz əsərlərində rəqslərin əyləndirici ünsürlərə malik olması təsəvvürlərinə

tamamilə üstün gəlmiş, realist musiqili xoreoqrafik dram yaratmışdır.
**II aparıcı:** Bəstəkarın musiqili səhnə əsərləri içərisində onun C.Hacıyevlə birlikdə yazdığı və milli opera sənətini zənginləşdirən "Vətən" operasını da xüsusi qeyd etmək lazımdır. Böyük vətənpərvərlik ruhu ilə yazılmış "Vətən" operası öz ideyası ilə bu günlərlə səsləşərək, vətənpərvərliyi tərənnüm edir, Azərbaycan gənclərinə vətənə böyük sədaqət hisslərini aşılayır. Heç təsadüfi deyil ki, 28 yaşlı sənətkar bu operaya görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan simfonik və kamera-instrumental musiqisinin inkişafında ən mühüm səhifələrdən biri Q.Qarayevin adı ilə bağlıdır. Onun bu janrda yazdığı əsərləri bütün dünyanı gəzərək ən müxtəlif ölkələrin simfonik orkestrləri tərəfindən ifa olunur.
*"Səslər zirvəsi" (İslam Səfərli) Bəstəkar Qara Qarayevə həsr olunub.*

Səs – zirvədir,
İncə bəstə cilalıdır.
Sözü varsa,
Kim yaratsa
Əsil sənət halalıdır.
Tər tökübdür,
Puçur – puçur,
Qram-qram,
Şirmayı dillər üstündə
Əziz Qaram!
Bəstələnmiş
Odlu qəlbi daim vurar,
"Yeddi gözəl"
Yeddi gəzər,
Yüz il yaşar, min il durar.
Muğam üstə
Yeni bəstə
Yaradana minnətdaram,

Əziz Qaram!
Bəstə nədir?
Musiqinin bir lələyi.
Qaramızın
Hər ulduzun
Sinəsində var ürəyi
Qara
Səslər zirvəsidir,
Əziz Qaram!
Qara vüsal,
Qara həsrət qovşağıdır,
Yağış onun
Bəstə şehi, qövsi-qüzeh qurşağıdır.
Gur Araza deyəndə ki:
Sən kamança,
Mən də taram.
Azərbaycan nəğmə deyir:
Əziz Qaram
əziz Qaram!

**I aparıcı:** İllər boyu simfonik musiqinin müxtəlif janrları üzərində işləyən Q.Qarayev mühüm yaradıcılıq prinsiplərinə daim sadiq qalmışdır. Bəstəkar, simfoniya, poema və süitalarında muğamlardan, xalq mahnı və rəqslərindən, aşıq yaradıcılığından ustalıqla yararlanmışdır. Bununla yanaşı, rus, türk, ispan və başqa xalqların musiqisinin bir sıra xüsusiyyətlərindən istifadə etmişdir.

**II aparıcı:** Q.Qarayevin yaradıcılığında onun istedadını eyni dərəcədə parlaq və maraqlı sürətdə xarakterizə edən daha bir musiqi sahəsi vardır. Bu, kamera-instrumental musiqidir. Azərbaycan musiqisi üçün bu sahə olduqca yeni idi. Məhz buna görədir ki, Q.Qarayevin instrumental-kamera əsərləri xüsusilə diqqətəlayiqdir. Gənc bəstəkarın Puşkin şeirinin gözəlliyinə valeh olduğu və “Tsarskoye selo” heykəlinin – sındırdığı su qabına kədərlə əyilmiş qızın poetik obrazını musiqi vasitəsilə

əks etdirdiyi vaxtdan uzun illər keçsə də, fortepiano üçün yazılmış əsər bu vaxta qədər radio verilişlərində və konsertlərdə səslənir. Bəstəkarın bütün yaradıcılığı boyu müraciət etdiyi və yalnız doğma xalqının poetik folklorunu deyil, həmçinin digər xalqların da lirik şeirlərini əhatə etdiyi vokal əsərləri onun yaradıcılıq qüdrəti və əzəmətini çox gözəl təcəssüm etdirir. Bəstəkarın romansları, mahnıları bu janrda yazılmış ən gözəl sənət nümunələridir.

**I aparıcı:** Görkəmli bəstəkar Cənubi Afrika yazıçısı Piter Abrahamsın romanı əsasında yazdığı "İldırımlı yollarla" baletini müasir dövrün olduqca aktual bir mövzusuna – irqi ayrı-seçkilik və müstəmləkə xalqlarının azadlıq uğrunda mübarizəsinə həsr edib. Fransız yazıçısı Anri Barbüsün əsəri əsasında "Zəriflik" monooperasının, A.Puşkinin şeirlərinə bəstələdiyi "Mən sizi sevirdim" və "Gürcüstan təpələrində" romanslarının, "Könül mahnısı", "Səadət mahnısı" kantatalarının müəllifidir.

**II aparıcı:** Qara Qarayev Azərbaycan musiqisi üçün yeni olan müzikl janrına da müraciət edib. Fransız dramaturqu E.Rostanın "Sirano de Brejerak" komediyası əsasında "Çılğın qaskoniyalı" müziklini yazıb. Kinonu xarakter etibarilə "böyük müasir bəstəkarlıq məktəbi" adlandıran Qarayev, bu janrda da məhsuldar işləyib, klassikaya çevrilən sənət nümunələri yaradıb. "Leyli və Məcnun", "Tarixin ibrət dərsi", "Uzaq sahillərdə", "Bir məhəlləli iki oğlan", "Dənizi fəth edənlər", "Qızıl eşelon", "Xəzər neftçiləri haqqında povest" və digər kinofilmlərə, "Nikbin faciə", "Antonio və Kleopatra" tamaşalarına yazdığı musiqilər onun yaradıcılığının parlaq səhifələrindəndir.

**I aparıcı:** Kinonu öz xarakteri etibarilə "böyük müasir bəstəkarlıq məktəbi" adlandıran Q.Qarayev, kino musiqisi üzərində də çox məhsuldar işləmiş, klassikaya çevrilən əsl sənətkarlıq nümunələri yaratmışdır. "Leyli və Məcnun", "Tarixin ibrət dərsi", "Uzaq sahillərdə", "Bir məhəlləli iki oğlan" və s. kinofilmlərə, "Nikbin faciə", V. Şekspirin "Antonio və Kleopatra" dram tamaşalarına yazdığı

musiqi onun yaradıcılığının parlaq səhifələrini təşkil edir. Q. Qarayev istedadlı publisist kimi özünün musiqi-estetik görüşlərini də son dərəcə inandırıcı və sadə şəkildə ifadə edib. Müasir bəstəkarlıq yaradıcılığı üslubundakı tipik və xarakterik cəhətləri elmi dəlillərə əsaslanır. Bəstəkarın tutarlı fikirləri və uzaqgörənliyi, həmçinin Azərbaycan musiqisinə həsr olunmuş məruzə və məqalələrində də öz əksini tapmışdır. Q.Qarayev yaradıcı kadrların tərbiyəsinə böyük əmək sərf etmişdir.

**II aparıcı:** 1946-cı ildən etibarən Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq sinfini aparan Q.Qarayev onlarca bəstəkar yetişdirmiş, bütöv bir musiqi-yaradıcılıq məktəbi yaratmışdır. Arif Məlikov, Vasif Adıgözəlov, Adil Bəbirov və başqaları onun ənənələrini davam etdirmişlər. İllər keçəcək, qərinələr dolanacaq, dahi Azərbaycan bəstəkarı Q.Qarayev musiqisinin zəngin xəzinəsi insanların ilham mənbəyi olaraq qalacaqdır. Onun özünə qarşı sonsuz tələbkarlığından doğan və bizə qoyub getdiyi irs dərinliyi və zənginliyinə görə tükənməzdir. Bizdən sonra gələcək nəsillər bu tükənməz xəzinədə özləri üçün hər dəfə yeni-yeni tapıntılar kəşf edəcəklər.

**I aparıcı:** Milli üslubları müasir musiqi texnikası ilə birləşdirən bəstəkar musiqi tariximizə yeni bir səhifə yazdı. Qara Qarayevin yüksək humanist ideyalar tərənnüm edən ilhamlı musiqisi bu gün də yaşayır və səslənir, dünyanı şəhər-şəhər, ölkə-ölkə gəzir, milyonlarla ürəkləri emosionallığı, hərarəti ilə fəth edir, qəlbləri qürur və iftixar hissi ilə doldurur. Qara Qarayevin irsi ölməzdir, həmişəyaşardır!

## Ədəbiyyat siyahısı


### *Kitablar*

**Qara Qarayevi anarkən** : məqalələr toplusu. - Bakı : Elm, 2002. - 158 s.

**Qara Qarayev** : biblioqrafiya. - Bakı : AMK, 2008. - 330 s. : il. - (Azərbaycanın Görkəmli Şəxsiyyətləri).

**Qara Qarayev** : oçerklər. - Bakı : Çinar - Çap, 2003. - 280 s.

**Qara Qarayev – tələbələrinin** xatirəsində : esse, oçerk, portret cizgiləri və foto sənədlər toplusu. - Bakı : Şərq-Qərb, 2009. - 224 s.

### *Kitablarda*

**Hüseynova D**. Qara Qarayevin harmoniyası : “Don Kixot” simfonik qravürlər əsasında // Müasir Azərbaycan Mədəniyyəti: problemlər və perspektivlər : elmi məqalələr toplusu. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2007. – S. 180-256.

**Qara Qarayev // Tağızadə A.** XX əsr Azərbaycan musiqisi : məqalə, oçerk, esse toplusu. - Bakı : Elm və Təhsil, 2011. – S. 32-37.

**Rza R.** Böyük bəstəkar haqqında kiçik qeydlər ; Qələbə yolları ilə ; Musiqimizin prinsipial qələbəsi ; Belə oğlu olan xalq xoşbəxtdir : Qara Qarayev haqqında məqalələr // Seçilmiş əsərləri. 5 cilddə. - 2005. – C.V. - S. 209-223.

**Səfərli İ.** Səslər zirvəsi : bəstəkar Qara Qarayevə : şeir // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 176-177.

## Dövri mətbuatda

**Abbaslı T.** Azərbaycanın dünyəvi təranəsi : son on ildə haqqında yazdığım bu üçüncü məqalə onun "Üçüncü simfoniya"sı fonunda // Mədəniyyət. - 2017. - 3 fevral. - № 9. - S. 10.

**Abbaslı T.** Milli və bəşəri melo-aləm... : dünyaya musiqi ildırımlı, sevgi sədalı, məhəbbət pıçıltılı Qara Qarayev! // Mədəniyyət. - 2013. - 1 fevral. - № 8. - S. 6.

**Abbaslı T.** Səs ildırımları, sevgiləri, pıçıltıları... : hələ sadalanası neçə-neçə Qara Qarayev sədaları // Mədəniyyət. - 2012. - 7 fevral. - № 8. - S. 5.

**Anar.** Sadəliyi dərketmə : [musiqi tarixində əvəzsiz rolu olan bəstəkarlar] // Qobustan. - 2017. - № 3. - S. 6-13.

**Azəri L.** Böyük musiqinin işığında : Qara Qarayev - 95 // Mədəniyyət. - 2013. - 8 fevral. - № 10. - S. 4.

**Azəri L.** "Yeddi gözəl" musiqi sənətinin mirvarisi : Qara Qarayevin dünyaca məşhur əsəri Belarus tamaşaçılarının qəlbini fəth etdi // Mədəniyyət. - 2013. - 29 noyabr. - № 86. - S. 9.

**Bakıda görkəmli bəstəkar** Qara Qarayevin abidəsi açılmışdır : Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir // Azərbaycan. - 2014. - 4 fevral. - № 23. - S. 1-2.

**Bakıxanov T.** Bütün əsərlərimi birinci Qara müəllimə dinlədirdim : [Xalq artisti, bəstəkar Tofiq Bakıxanov ilə müsahibə / söhbətləşdi R. Günəş] // Mədəniyyət. - 2015. - 4 mart. - № 17. - S. 6-7.

**Behbudqızı S.** Qara Qarayevi xatırlarkən // Mədəniyyət.az. - 2016. - № 2. - S. 40-43.

**Biz bu gün də** ondan bəhrələnirik : bəstəkar Qara Qarayev haqqında // Azərbaycan. - 2015. - 5 fevral. - № 27. - S. 9.

**Dadaşov A.** Müəllimim və mən : film dahi Azərbaycan bəstəkarı Qara Qarayeva həsr edilir... // Mədəni Həyat . - 2014. - № 8. - S. 21-25.

**Dadaşzadə Z.** Qara Qarayev adına VI Müasir Musiqi Festivalı // Mədəniyyət.az. - 2015. - № 4. - S. 28-36.

**Əfəndiyeva İ.** 41-45-in mahnıları : (ixtisarla) // Qobustan. - 2017. - № 1. - S. 27-28.

**Əliyeva A.** Böyük ehtiramın parlaq təzahürü : Moskvada böyük Azərbaycan bəstəkarı, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti Qara Qarayevin xatirə lövhəsinin açılış mərasimi // Mədəni Həyat . - 2014. - № 7. - S. 2-3.

**Əliyeva İ.** Böyük sənətin qüdrəti : [görkəmli bəstəkar Qara Qarayevin həyat və yaradıcılığı haqqında] // Azərbaycan. - 2016. - 6 fevral. - № 27. - S. 6.

**Əlizadə F.** Ustad, davamçını yetişdir : Qara Qarayev haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 26 fevral. - № 8. - S. 1-2.

**Ənvəroğlu V.** "Qaralı" etüd (minor) : Qara Qarayev korridaya baxanda ağlayırmış // Qobustan. - 2015. - № 4. - S. 57-58.

**Gələcəyin harayı** : Qara Qarayev // El. - 2012. - № 2. - S. 4-14.

**Günəş R.** Tofiq Bakıxanovun Qara Qarayevlə bağlı xatirələri // Azərbaycan Müəllimi. - 2015. - 21 fevral. - № 7. - S. 8.

**Xəlilov V.** Azərbaycanın ədəbiyyat və incəsənət xadimlərinin Böyük Vətən müharibəsi ilə əlaqədar yaradıcılığı // Məktəbəqədər və ibtidai təhsil. - 2015. - № 2. - S. 58-64. – Məqalədə Qara Qarayev yaradıcılığına da yer verilib.

**Xəlilzadə F.** Milli musiqimizin beynəlmiləl məzmunu : Qara Qarayev // Azərbaycan. - 2013. - 5 fevral. - № 26. - S. 7.

**Qarayev F.** Qoyya üzərində birgə işimiz... : esse // Mədəniyyət. - 2010. - 29 yanvar. - № 6-7. - S. 14-15.

**Qulamova J.** Dahi bəstəkarın sənət ənənələri yaşayır : Qara Qarayev haqqında // Mədəniyyət. - 2013. - 6 mart. - № 17. - S. 13.

**Mustafa F.** Əbədiyyət düsturu : Qara Qarayevin yaradıcılığı haqqında dinləyici düşüncələri // Mədəniyyət. - 2013. - 19 aprel. - № 28. - S. 10.

**Nizamiqızı H.** İldırımlı yollardan keçən ömür // Mədəniyyət. - 2010. - 5 fevral. - № 9. - S. 3.

**Reyhan.** Dahi bəstəkar Qara Qarayevin xatirəsi yad edildi // Mədəniyyət. - 2013. - 6 fevral. - № 9. - S. 3.

**Rza R.** Böyük bəstəkar haqqında kiçik qeydlər : Qara Qarayev haqqında // Qobustan. - 2010. - № 2. - S. 8-10.

**Sənət dühasına böyük** ehtiram : Qara Qarayevin yubileyi vaxtilə təhsil aldığı Moskva Dövlət Konservatoriyasında təntənə ilə qeyd olunub // Mədəniyyət. - 2013. - 19 aprel. - № 28. - S. 5.

**Təhmirazqızı S.** Əbədi yaşayan ecazkar musiqi : bəstəkar Qara Qarayev haqqında // Mədəniyyət. - 2014. - 5 fevral. - № 9. - S. 7.

**Təhmirazqızı S.** O, dünya şöhrəti qazansa da, Azərbaycan bəstəkarı olaraq qalır : Qara Qarayevin yaradıcılıq irsi təbliğat və tədqiqat üçün zəngin mənbədir // Mədəniyyət. - 2016. - 5 fevral. - № 10. - S. 7.

**Vəliyeva Ü.** Qara Qarayev yaradıcılığında müasirlik // Mədəni Maarif. - 2011. - № 12. - S. 11-13.

# Bütün nəsillərin müasiri Qara Qarayev
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 12
Çapa imzalanmışdır: 19.01.2018
Tirajı:100
Pulsuz